# ÜMUMMİLLİ LİDERİN GƏNCƏYƏ SƏFƏRİ XİLASKARLIQ MİSSİYASI İDİ

**Tariximizə Milli Qurtuluş Günü kimi daxil olmuş 1993-cü ilin 15 iyun Azərbaycanda ölüm-dirim mübarizəsində qurtuluş tarixidir. Bu tarixi yaradan isə yenə də Azərbaycanın inkişafında, müstəqilliyində, gələcəyində müstəsna rol oynayan, daim xalqına arxalanan və xalqa arxa olan böyük şəxsiyyət - Heydər Əliyevdir. Məhz yalnız ulu öndərin qətiyyəti və cəsarəti ilə 1993-cü ilin 15 iyun günü xalqımızın mübarizələrlə dolu müasir tarixinə yeni eranın başlanğıcı kimi daxil oldu. Heydər Əliyevin Azərbaycana xalqın təkidi, siyasi hakimiyyətə qayıdışı ilə qoca Qafqazın bu bölgəsində yeni siyasi bir dövr, yeni təfəkkür dövrünün mərhələsi başlandı və bu intibah dövrü Azərbaycanın XXI əsrə hüquqi, demokratik dövlət kimi daxil olmasına əsaslı təməl yaratdı. Bu gün Azərbaycan ulu öndərin müəyyən etdiyi siyasi kurs sayəsində regionun qüdrətli dövləti və söz sahibidir. Hazırda bu nüfuz dünya səviyyəsinə qalxmaqdadır.**

Gəncə şəhərində müdrik və uzaqgörən xalqımızın öz böyük oğluna sevgisi sonsuzdur. Belə Vətən övladlarından biri də Heydər Əliyev siyasətinə sadiq, təbliğində həmişə ön cərgədə olan ozamanki hadisələrin canlı şahidlərindən biri, Azərbaycan Respublikası Əmək və Sosial Müdafiəsi Nazirliyinin yanında Dövlət Əmək Müfəttişliyi Xidməti 21 saylı region üzrə Dövlət Əmək Müfəttişliyinin rəisi Xaqani Zeynalabdin oğlu Səfərovdur. Sadəliyi, səmimiliyi son dərəcə işgüzarlığı və yurd təəssübkeşliyi ilə seçilən Xəqani müəllimi bölgədə hər kəs etibarlı, sədaqətli, vicdanlı və məsuliyyətli insan kimi tanıyır, sevir və hörmət edirlər. 70-ci illərdən ümummilli liderin siyasətini dərk edən və dəstəkləyən, onun qayıdışından ən çox sevinən və əlindən gələni əsirgəməyən bu ziyalı hələ 1992-ci ildən YAP Binəqədi təşkilatının fəal üzvü olmuşdur. Peşəkarlığına, işgüzarlığına və dövlətə sədaqətliliyinə görə dəfələrlə şəhər icra hakimiyyətinin "Fəxri fərman"ları ilə təltif olunmuşdur. 2014-cü ildə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "Tərəqqi" medalı ilə təltif olunmuşdur. Müsahibimizlə iş yerində görüşdük. Ondan şahidi olduğu ümummilli liderimiz Heydər Əliyevin hakimiyyətə qayıdışı prosesi və Gəncə hadisələri haqqında məlumat verməyini xahiş etdik. O, qeyd etdi ki, 1990-cı illərin əvvəllərində, Azərbaycan XX əsrdə ikinci dəfə öz dövlət müstəqilliyini əldə etdikdən sonra yenidən çox böyük çətinliklərlə üzləşmişdi. Ölkə daxilində hakimiyyət uğrunda mübarizənin fonunda baş alıb gedən xaos və anarxiya respublikanı uçuruma sürükləyirdi. Belə ağır zamanda dövlətin, millətin taleyi "olum, ya ölüm" dilemması qarşısında qalmışdı. Ziyalılar üzlərini xalqın böyük oğluna-Heydər Əliyevə tutdular, onu Vətəni, milləti xilas etməyə qadir olan bir siyasi təşkilat yaratmağa, Azərbaycanın bütün mütərəqqi qüvvələrini bu amal ətrafında toplamağa dəvət etdilər.

Xalq özünün sınanmış liderini hakimiyyətə gəlməyə, müstəqil Azərbaycan dövlətini xilas etməyə israrla dəvət etdi. Xalqın qəzəbindən qorxan səriştəsiz hökumət də Heydər Əliyevin hakimiyyətə gəlməsini təkid edən ziyalıların səsinə səs verdi.

Azərbaycanın görkəmli oğlu böyük vətənpərvər Heydər Əliyev xalqın bu ağır günündə, şübhəsiz, kənardan baxa bilməzdi. O, xalqın və respublikanın hakim dairələrinin təkidli dəvətini qəbul edib iyunun 9-da Bakıya gəldi. Milyonlarla insan onu qarşılamağa çıxmışdı, sözün əsl mənasında "iynə atsaydın yerə düşməzdi". Ümummilli lider gurultulu və sürəkli alqışlar altında təyyarədən endi. Bununla da daxili və xarici düşmənlərimizin bütün planları iflasa uğradı. Xilaskarlıq missiyasını öz üzərinə götürən bu nəhəng şəxsiyyət həyatını təhlükə altında qoyaraq Gəncəyə gəldi. Hadisələrin daha faciəli nəticələrə gətirib çıxarmaması üçün öz ağsaqqal sözünü dedi.

İndi inamla söyləyə bilərik ki, Heydər Əliyevin Gəncəyə səfəri vətəndaş qarşıdurmasının genişlənməsinin qarşısını aldı. Onun Gəncəyə səfəri xilaskarlıq missiyası, qətiyyət və cəsarət nümunəsi idi. Ümummilli liderimiz Gəncədə baş verən hadisələrə münasibət bildirərkən demişdir: "Hadisələr dəhşətlidir. Qan tökülüb, cinayət edilib. Bunlar araşdırılmalıdır və qanunu pozmuş bütün adamlar, cinayətdə iştirak etmiş adamlar, cinayəti təşkil etmiş, hansı tərəfdən asılı olmasına baxmayaraq qanun qarşısında məsuliyyət daşımalıdırlar". Bütün gəncəlilər bu gəlişi böyük ümid və sevinclə qarşıladılar, sanki yenidən doğulmuşdular.

Qısa bir zamanda dahi rəhbərin siyasi iradəsi və xalqın dəstəyi sayəsində ölkədə əmin-amanlığa təhlükə törədən, müxtəlif siyasi maraqlara xidmət edən qanunsuz silahlı dəstələr ləğv edildi, ictimai-siyasi sabitlik bərqərar olundu. 1994-cü ilin mayında Ermənistan-Azərbaycan müharibəsində atəşkəs elan olundu, sentyabrda isə dünyanın aparıcı neft şirkətləri ilə Azərbaycan Dövlət Neft Şirkəti arasında "Əsrin müqaviləsi" imzalandı. Azərbaycanda demokratik dövlət quruculuğu ilə məşğul olmaq, iqtisadi-siyasi islahatlar aparmaq üçün vaxt və imkan yarandı.

Ulu öndərin rəhbərliyi ilə müstəqil Azərbaycanın ilk demokratik Konstitusiyası hazırlandı və 1995-ci il 12 noyabrında ümumxalq səsverməsi yolu ilə qəbul olundu. Böyük peşəkarlıqla hazırlanmış əsas qanunumuz ölkənin gələcək inkişaf prioritetlərini müəyyənləşdirməklə yanaşı, insan hüquq və azadlıqlarının təminatını dövlətin ali məqsədi kimi ön plana çəkmişdir. Konstitusiyada hakimiyyət bölgüsü prinsipləri dəqiq formalaşmış, zamanın tələbi ilə səsləşən məhkəmə-hüquq islahatlarının həyata keçirilməsi üçün fundamental hüquqi zəmin yaradılmışdır. Əsas qanunumuzda əksini tapmış strateji məqsədlər, ilk növbədə insan haqları, söz və fəaliyyət azadlıqlarının qorunması kimi demokratik prinsiplərin real həyatda tətbiqini zərurətə çevirmişdir. İrqindən, cinsindən, milliyyətindən, dinindən, dilindən, əqidəsindən, siyasi və sosial mənsubiyyətindən asılı olmayaraq, hər bir insanın qanun qarşısında bərabərliyi prinsipi qanunvericilik, icra və məhkəmə orqanları qarşısında əsas vəzifə kimi qoyulmuşdur. Ümummilli liderin müdrik və uzaqgörən siyasəti nəticəsində ölkənin demokratikləşdirilməsi, iqtisadi islahatların sürətlə həyata keçirilməsi və siyasi islahatların genişlənməsi fonunda baş verirdi. Azərbaycan dövlətinin təşəbbüsü ilə respublikanın və ümumilikdə bütün, regionun iqtisadi inkişafına təkan verən Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri kimi beynəlxalq layihələr reallığa çevrilir, respublikanın beynəlxalq əlaqələri sürətlə genişlənir və nüfuzu artır, möhkəmlənirdi. Ölkəmizin dünyaya inteqrasiya prosesi uğurla gedirdi. Azərbaycanın Avropa Şurasının tamhüquqlu üzvü seçilməsi də aparılan mütərəqqi islahatların və sürətli inkişafın nəticəsi idi. Ulu öndər keçən əsrin 70-ci illərində də sovet Azərbaycanında quruculuq və milli oyanış missiyasını şərəflə həyata keçirmişdi. Azərbaycan tarixinin taleyüklü məsələlərlə dolu həmin dövrü də Heydər Əliyevin adı ilə bağlı olmuşdur. İlk dəfə, 1969-1982-ci illərdə hakimiyyətdə olarkən ulu öndər Azərbaycan xalqını zamanın ən çətin sınaqlarından çıxararaq ölkənin iqtisadi, siyasi və mədəni tərəqqisinə nail olmuş, geniş vüsət alan inkişaf proseslərinə təkan vermişdir. Ümummilli lider ömrü boyu Azərbaycan xalqının rifahı naminə çalışmış və hansı sahədəki fəaliyyətindən asılı olmayaraq bacarığı, qabiliyyəti, fitri istedadı ilə diqqəti cəlb etmişdir. Məhz Heydər Əliyevin rəhbərliyi altında ardıcıl 13 il sovet hakimiyyətinin keçici qırmızı bayrağına layiq görülmüş Azərbaycan geridə qalmış kənd təsərrüfatı respublikasından qabaqcıl sənaye ölkəsinə çevrilmişdir. Heydər Əliyev milli kadrların yetişməsinə həmişə böyük qayğı və diqqətlə yanaşır, onların sonrakı inkişafını da izləyirdi. 1993-cü il iyunun 15-də isə xalqın tələbi ilə Ali Sovetin sədri seçildiyi gündən, ömrünün qalan hissəsini Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr etdi, xalqın qəlbində, tarixində öz əbədi abidəsini ucaltdı. Ulu öndər Heydər Əliyevin siyasətdə, iqtisadiyyatda və mədəniyyətdə qoyduğu izlər heç vaxt silinməyəcək. Bu gün Azərbaycan xalqı unudulmaz rəhbərin xoşbəxt gələcəyimiz üçün açdığı yolla qətiyyətlə addımlayır. Bu gün də mövcud iqtidarla xalqın monolit birliyi nəticəsində ümummilli liderimizin qurub-yaratdığı azad, müstəqil, demokratik Azərbaycan onun müəyyən etdiyi strateji xətlə inamla getməkdə, inkişafını davam etdirməkdədir. Bu xətti əzmlə, dəyanətlə irəli aparan isə ulu öndərin layiqli siyasi varisi, praqmatik dövlət xadimi, bütün dünya miqyasında böyük hörmətə, nüfuza malik Prezidentimiz İlham Əliyevdir. Dövlətimiz və xalqımızın həyatı üçün ən mühüm əhəmiyyət kəsb edən prinsipial məsələlərdə Prezident İlham Əliyev də Heydər Əliyevə xas olan möhkəm iradə və qətiyyətli mövqe nümayiş etdirir, Azərbaycan dövlətinin qüdrətini, sarsılmaz təmələ malik olduğunu öz məhsuldar fəaliyyəti ilə sübut edir. Prezidentimizin apardığı dərin, düşünülmüş, uzaqgörən daxili və xarici siyasət, onun xalqa olan səmimi məhəbbəti və doğma Vətənimiz naminə səmərəli fəaliyyəti hər birimizdə qürur hissi oyadır. Xalqımızın firavan gələcəyinin təminatına hesablanmış praqmatik siyasi strategiya sayəsində Azərbaycan regionun lider dövlətinə çevrilmiş, ölkəmizin nüfuzu daha da artmışdır. Prezident İlham Əliyevin səriştəli idarəetmə qabiliyyətinin nəticəsidir ki, indi respublikamız iqtisadi inkişaf tempinə görə dünyanın ən qabaqcıl ölkələrindən biridir.



Bir sözlə, Milli Qurtuluş Günü Azərbaycanın indiki reallıqlarının və xoşbəxt gələcəyinin rəhnidir. Ulu öndərin işləyib hazırladığı müstəqil, inkişaf etmiş dövlət quruculuğu konsepsiyası müasir Azərbaycan dövlətinin uğurlarının təminatçısıdır və gələcək inkişafın, misli görünməmiş uğurların əsasını qoymuşdur. Müasir Azərbaycanın dinamik inkişafı məhz Qurtuluş Günü ilə başlayıb və həmin siyasət bu gün Prezident İlham Əliyev tərəfindən böyük uğurla davam etdirilir. Azərbaycanın bütün dünya tərəfindən etiraf olunan dinamik inkişafı ilk növbədə vətəndaşlarımızın maddi rifah halının yaxşılaşmasına xidmət edir, ölkəmiz sürətli tərəqqi yolu ilə inamla addımlayır. Xalqımız haqlı olaraq bu günü – Qurtuluş Gününü hər il təntənəli bir bayram kimi qeyd edir.

**Zabit XƏLİLOV,**
**"Respublika".**